


“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 17 iyun 2023-cü il №45 (2757) https://mod.gov.az Qiymәti 30 qəpik


## Prezident İlham Əliyev 15 İyun - Milli Qurtuluş Günü münasibətilə paylaşım edib




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 15 İyun - Milli Qurtuluş Günü münasibətilə tviter hesabında paylaşım edib.

AZƏRTAC paylaşımı təqdim edib.

## Birinci vitse-prezident Mehriban Əliyeva 15 İyun - Milli Qurtuluş Günü ilə bağlı paylaşım edib




Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram səhifəsində 15 İyun - Milli Qurtuluş Günü ilə bağlı paylaşım edib.

AZƏRTAC paylaşımı təqdim edib.

## Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərifin Azərbaycana rəsmi səfəri

*Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif iyunun 14-də Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.*

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərifi hava limanında Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Elnur Məmmədov və digər rəsmi şəxslər qarşılayıblar.

* * *

Azərbaycan Respublikasında rəsmi səfərdə olan Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif iyunun 15-də Fəxri xiyabana gəlib.

Məhəmməd Şahbaz Şərif xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, abidəsi önünə əklil qoyub.

* * *

Azərbaycan Respublikasında rəsmi səfərdə olan Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif iyunun 15-də Şəhidlər xiyabanını ziyarət edib.

Pakistanın Baş naziri "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

Pakistanın Baş nazirinə Şəhidlər xiyabanının tarixi və şəhərdə görülən abadlıq-quruculuq işləri barədə məlumat verilib.

* * *

Azərbaycan Respublikasına rəsmi səfərə gələn Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərifin iyunun 15-də rəsmi qarşılanma mərasimi olub.

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda Pakistanın Baş nazirinin şərəfinə Fəxri qarovul dəstəsi düzülüb.

Azərbaycan Prezidenti İlham Əliyev Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərifi qarşılayıb.

Fəxri qarovul dəstəsinin rəisi Pakistanın Baş nazirinə raport verib.

Baş nazir Məhəmməd Şahbaz Şərif Azərbaycan əsgərlərini salamlayıb.

Prezident İlham Əliyev və Baş nazir Məhəmməd Şahbaz Şərif fəxri qarovul dəstəsinin qarşısından keçiblər.



Pakistan İslam Respublikasının və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndirilib.

Azərbaycan nümayəndə heyəti Pakistanın Baş nazirinə, Pakistan nümayəndə heyəti isə Azərbaycan Prezidentinə təqdim olunub.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Prezident İlham Əliyevin və Baş nazir Məhəmməd Şahbaz Şərifin qarşısından keçib.

Prezident İlham Əliyev və Baş nazir Məhəmməd Şahbaz Şərif rəsmi foto çəkdiriblər.

* * *

İyunun 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif ilə təkbətək görüşü olub.

* * *

İyunun 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərifin geniş tərkibdə görüşü keçirilib.

Görüşdə çıxış edən Azərbaycan Prezidenti **İlham Əliyev** deyib:

- Hörmətli cənab Baş nazir, mənim əziz qardaşım və hörmətli qonaqlar, Azərbaycana xoş gəlmisiniz. Sizi ölkəmizdə qəbul etməyə çox şadam. Mənim dəvətimi qəbul etdiyiniz üçün Sizə təşəkkür edirəm. Əminəm ki, səfəriniz ölkələrimiz arasında qardaşlıq münasibətlərini gücləndirəcək. Bu münasibətlər tərəfdaşlıq, dostluq və qardaşlıq üzərində qurulub. Biz elə indicə cənab Baş nazirlə ikitərəfli münasibətlərimizin geniş gündəliyini müzakirə etdik və bir daha ölkələrimizin suverenliyinə, ərazi bütövlüyünə güclü dəstəyimizi ifadə etdik. Mən cənab Baş nazirə Azərbaycanın ərazi bütövlüyünə və işğal vaxtında, İkinci Qarabağ müharibəsində və ərazi bütövlüyümüzü bərpa etdikdən sonra göstərilmiş dəstəyə görə minnətdarlığımı bildirdim. Biz Kəşmir məsələsində Pakistanın mövqeyini ciddi dəstəklədiyimizi bir daha ifadə edirik və bütün beynəlxalq təsisatlarda bu mövqeyi açıq şəkildə dəstəkləyirik və dəstəkləməyə davam edəcəyik.

Bu gün biz ticarət və iqtisadi əməkdaşlığımıza, enerjiyə, daşımalara, müdafiə sənayesinə aid mühüm məsələləri geniş şəkildə müzakirə etdik. Biz bu formatda müzakirələrimizi davam etdirəcəyik. Əminəm ki, səfər nəticəsində müxtəlif sahələr üzrə yeni əməkdaşlıq proqramını işləyib hazırlayacağıq və o, bizim tərəfdaşlığımızı daha da gücləndirəcək.

Cənab Baş nazir bir daha xoş gəlmisiniz.

**(Ardı 2-ci səhifədə)**

## “Azərbaycan-Pakistan əməkdaşlığı regional təhlükəsizlik baxımından xüsusi əhəmiyyətə malikdir”

***Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərifin ölkəmizə səfəri Azərbaycan-Pakistan münasibətlərinin inkişafı baxımından mühüm əhəmiyyətə malikdir. Pakistan 30 illik işğal dövründə Azərbaycan torpaqlarını işğal etdiyinə görə Ermənistanı bir dövlət kimi tanımayıb və diplomatik əlaqələr qurmayıb.***

Bu sözləri AZƏRTAC-a açıqlamasında Sosial Tədqiqatlar Mərkəzinin (STM) sektor müdiri, politoloq Tural İsmayılov söyləyib.

Onun fikrincə, 44 günlük Vətən müharibəsi dövründə Pakistan beynəlxalq hüququn, haqq-ədalətin yanında yer aldı, Azərbaycan torpaqlarının işğalına birmənalı şəkildə qarşı çıxdı. Vətən müharibəsi dövründə Pakistanın Azərbaycana yanaşması dost-qardaş münasibətləri kontekstində olub. Bu gün Azərbaycan və Pakistan bir çox sahələrdə əməkdaşlıq edir. Həmçinin Azərbaycanın Pakistanla əməkdaşlığı təkcə ikitərəfli deyil, həm də çoxşaxəlidir.

"Azərbaycan, Türkiyə və Pakistan hərbçiləri müxtəlif təlimlərdə və beynəlxalq tədbirlərdə birlikdə iştirak edirlər. Prezident İlham Əliyev ölkəmizlə Pakistan arasındakı hərbi əməkdaşlığın bundan sonra daha da dərinləşdirilməsi ilə bağlı açıqlama verdi ki, bu da böyük əhəmiyyətə malikdir. Ümumilikdə Azərbaycanın Pakistan kimi müasir silahlara və hərbi siyasətə malik olan bir ölkə ilə əməkdaşlığı inkişaf etdirməyi çox vacibdir", - deyə politoloq vurğulayıb.

T.İsmayılov əlavə edib ki, Pakistan tərəfi, həmçinin Ermənistanla münasibətləri yalnız Azərbaycanla sülh bağlayacağı təqdirdə bərpa edəcəyini söyləyir: "Pakistanın Baş nazirinin bunu Azərbaycanda ifadə etməsi, eyni zamanda, Prezident İlham Əliyevi Pakistana səfərə dəvət etməsi çox önəmli diplomatik mesajlardan biridir. Düşünürəm ki, Azərbaycan-Pakistan əməkdaşlığı həm də regional təhlükəsizlik baxımından xüsusi əhəmiyyətə malikdir".

# Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərifin Azərbaycana rəsmi səfəri



(Əvvəli 1-ci səhifədə)

Pakistanın Baş naziri **Məhəmməd Şahbaz Şərif** deyib:

-Təşəkkür edirəm, mənim qardaşım Prezident İlham Əliyev. Sizinlə bir daha görüşmək mənim üçün böyük şərəfdir. Burada əyləşənlər qardaş və bacılardır. İcazə verin, əvvəlcə bunu deyim, mənim qardaşım Baş nazir Nəvaz Şərif mənə dünən dedi ki, siz Bakıya gedəcəksiniz, mənim səmimi salamlarımı qardaşım Prezident Əliyevə çatdırın. O dedi ki, Şahbaz, Bakını görmək səndə böyük təəssürat yaradacaq. Cənab Prezident, bu, məndə, sadəcə təəssürat yaratmayıb, dərin təəssürat yaradıb. Mənim ötən gecədən etibarən gördüklərim Sizin baxışınızı, liderliyinizi və bu illər ərzində ölkənizi qurmaq üçün göstərdiyiniz dinamik səyləri əks etdirir. Mən ziddiyyətdən çəkinməyərək deyə bilərəm ki, indiyədək Bakıda gördüklərimin müqayisəsini apara bilərəm. Siz bu şəhəri dünyanın hər hansı ən inkişaf etmiş, gözəl şəhəri ilə müqayisə edə bilərsiniz. Burada heç bir mübaliğə yoxdur. Mənim gündəlik üzrə qaldırmağı nəzərdə tutduğum məsələlərdən biri o idi ki, istəyirdim ən yaxşı landşaft mütəxəssislərini Pakistana göndərəsiniz. Landşaft gözəldir, mənə inanın, mən heyran olmuşam.

Prezident **İlham Əliyev**: Təşəkkür edirəm.

Baş nazir **Məhəmməd Şahbaz Şərif**: Bu gün mən dahi atanızın məzarını ziyarət etdim. Deməliyəm ki, Sizin gördüyünüz böyük işlər sayəsində onun ruhu çox şad olmalıdır. Sizi təbrik edirəm. Düşünürəm ki, mənim Bakıya səfərim çox mühüm əhəmiyyət kəsb edir. Hesab edirəm ki, İslamabada qayıdanda, dövlət xidməti sahəsində belə bir liderin addımlarından çox şey öyrənmiş olacağam.

Qardaşım Prezident, biz iki qardaş ölkəyik. Bizim əlaqələrimiz qarşılıqlı etimad, hörmət və hədsiz səmimiyyət üzərində qurulub. Siz hər zaman Kəşmir məsələsini dəstəkləmisiniz və Pakistanın yanında olmusunuz.

* * *

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirib, onun da salamlarını Nəvaz Şərifə çatdırmağı xahiş edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif iyunun 15-də mətbuata bəyanatlarla çıxış ediblər.

Əvvəlcə Azərbaycan Prezidenti bəyanatla çıxış edib.

### Prezident İlham Əliyevin bəyanatı

- Hörmətli cənab Baş nazir, hörmətli Qardaşım.

Xanımlar və cənablar,



Azərbaycana xoş gəlmisiniz.

Mən çox şadam ki, əziz Qardaşım Azərbaycanda səfərdədir. Bizim münasibətlərimiz iki qardaş ölkə arasında olan münasibətlərdir. Bizim Baş nazirlə təmaslarımız müntəzəmdir. Biz ötən il müxtəlif beynəlxalq tədbirlər çərçivəsində iki dəfə görüşmüşük. Mən minnətdaram ki, cənab Baş nazir dəvətimi qəbul edib və ölkəmizə rəsmi səfərə gəlib.

Ölkələrimiz arasında münasibətlər birgə tarix, mədəniyyət, din, həmrəylik və qarşılıqlı dəstək üzərində qurulub. Biz Pakistana minnətdarıq ki, işğal dövründə Azərbaycana dəstək verib və 44 günlük Vətən müharibəsi zamanı da bizə güclü dəstək göstərib.

Pakistan Ermənistan ilə diplomatik münasibətlər qurmayan ölkədir və bu, məhz işğal səbəbindən baş vermişdir. Bu isə qardaş ölkə mövqeyidir, buna görə mən minnətdaram.

Bu gün mən cənab Baş nazirə Azərbaycan və Ermənistan arasında sülh sazişi üzərində hazırda gedən danışıqlarla bağlı məlumat verdim. Bu sazişin imzalanmasının perspektivləri var, sadəcə olaraq, Ermənistan siyasi iradə nümayiş etdirməlidir və artıq rəsmi olaraq bəyan etdiklərini kağız üzərində həkk etməlidir ki, Qarabağ Azərbaycandır!

Azərbaycan Pakistanı Kəşmir məsələsində hər zaman dəstəkləyib, bu dəstək davam edəcəkdir. Biz bütün beynəlxalq təşkilatlarda bu dəstəyi və həmrəyliyi nümayiş etdiririk. Əlbəttə ki, qarşılıqlı dəstək bizim ölkələri və xalqları daha da yaxınlaşdırır.

Azərbaycan xalqı çox gözəl bilir ki, 44 günlük müharibə dövründə kim bizimlə bir yerdə idi. Bu, Türkiyə və Pakistan idi. Hər iki ölkə müharibə zamanı ciddi siyasi dəstək nümayiş etdirdi.

Bu gün biz ikitərəfli gündəliyimizə daxil olan bir çox məsələləri, eyni zamanda, regional prosesləri, regional təhlükəsizlik məsələlərini müzakirə etdik. Bizim irəliyə getməyimizlə bağlı tam aydın təsəvvürümüz var. Biz razılığa gəldik ki, artıq Azərbaycandan bir neçə nümayəndə heyəti Pakistana səfər edəcəkdir. Biri ticarət və sərmayə məsələsi, növbəti nümayəndə heyəti enerji məsələsi ilə məşğul olacaq, üçüncüsü isə müdafiə sənayesi sahəsində əməkdaşlığı nəzərdən keçirəcəkdir.

Biz, eyni zamanda, razılığa gəldik ki, ticarətimizin həcmini artırmaq üçün daha ciddi səylər göstərək. Biz bu istiqamətdə anlaşma memorandumu imzalayacağıq və məhsulların siyahısı üzərində işləyəcəyik ki, həmin siyahı bizim ticarət dövriyyəmizin artırılmasına xidmət edəcək.

Əlbəttə ki, enerji sahəsində böyük perspektivlər var, istər ənənəvi enerji, istərsə də bərpaolunan enerji sahəsində. Biz, eyni zamanda, razılığa gəldik ki, şəhərlərimiz arasında uçuşların sayını artıracağıq, xüsusilə də paytaxtlar arasında. Bu isə görüşümüzün, bu səfərin yaxşı nəticəsi olacaqdır.

Biz bununla yanaşı, təhsil sahəsində böyük potensialı görürük. Bu gün Azərbaycanda Pakistandan olan 750 tələbə təhsil alır və bu prosesin necə sürətlə getdiyinə baxsaq görərik ki, ötən il sadəcə 100 tələbə təhsil alırdı. Yəni, biz daha çox pakistanlı qardaşlarımızı burada görmək istəyirik. Eyni zamanda, Pakistanda təhsil alan azərbaycanlılar da var. Bu gün onlar müxtəlif sahələrdə təhsil alaraq, qayıdıb ölkəmizə töhfələrini verirlər.



Eyni zamanda, biz müdafiə sənayesi sahəsində əməkdaşlığı müzakirə etdik. Artıq qeyd etdiyim kimi, birgə hərbi təlimlərin sayının artırılması məsələsini müzakirə etdik, buna ehtiyac var. Çünki dünyada vəziyyət dəyişir, qeyri-sabitlik nöqtələri artır, ona görə də güclü hərbi potensial müstəqilliyin və ərazi bütövlüyünün qarantıdır.

Bildiyiniz kimi, Azərbaycan 30 il ərzində Ermənistanla danışıqlarda iştirak edirdi və bu danışıqlar heç bir nəticə vermədi. Yalnız bizim hərbi gücümüz və Azərbaycan Ordusunun əzmi ərazi bütövlüyümüzü bərpa etdi. Bu, danışıqlar və ya hər hansı bir vasitəçilik hesabına baş vermədi. Əksinə, həmin vasitəçilik səyləri vəziyyətin dondurulmasına gətirib çıxarmışdı. Biz bununla qəti razı olmadıq. Biz ərazi bütövlüyümüzü bərpa etdik, torpaqlarımızı 3 min övladımızı şəhid verərək döyüş vasitəsilə aldıq.

Biz görürük ki, beynəlxalq hüquq selektiv şəkildə tətbiq edilir. BMT Təhlükəsizlik Şurasının bəzi qətnamələri icra edilir, digərləri yox. Biz hər ikimiz bunu yaxşı bilirik. Ona görə, ərazi bütövlüyü, təhlükəsizlik və firavanlıq, əlbəttə ki, Sizin ölkənin iqtisadi və hərbi gücü ilə bağlıdır. Bütün bu məsələlərdə bizim qarşılıqlı tam anlaşmamız var. Pakistan və Azərbaycan hər zaman çiyin-çiyinə dayanan ölkələr olubdur. Daha mühüm amillərdən biri odur ki, xalqlarımız da öz rəhbərliyinin fikrini bölüşür və Bakının müxtəlif yerlərində Pakistan bayraqlarını görə bilərsiniz. Bu, İkinci Qarabağ müharibəsi dövründə asılmış bayraqlardır. İki il yarım bundan öncə müharibə başa çatsa da, burada Pakistan bayraqları hələ də dalğalanır. Bu, xalqımızın münasibətidir və biz eyni münasibəti Pakistan xalqından da görürük.

Cənab Baş nazir, səfərə gəldiyinizə görə Sizə bir daha təşəkkür edirəm. Mən Sizinlə görüşlərimizi hər zaman məmnunluqla xatırlayıram və biz bütün məsələləri müzakirə edirik. Eyni zamanda, Pakistan xalqını da təbrik etmək istəyirəm ki, Sizin kimi böyük təcrübəyə və siyasi baxışlara malik olan insanı hakimiyyətə gətirib. Siz ölkənizin inkişafına bağlı olan insansınız və onun müstəqilliyini gücləndirmək üçün səy göstərirsiniz. Əminəm ki, Sizin rəhbərliyinizlə Pakistan və qardaş Pakistan xalqı daha da böyük uğurlar, nailiyyətlər əldə edəcəkdir.

Sizə və xalqınıza firavanlıq, xoşbəxtlik və sülh arzu edirəm. Təşəkkür edirəm.

* * *

Sonra Pakistanın Baş naziri bəyanatla çıxış edib.

### Baş nazir Məhəmməd Şahbaz Şərifin bəyanatı

- Əziz Qardaşım, cənab Prezident Əliyev.

Əvvəlcə onu qeyd etmək istəyirəm ki, biz gözəl ölkənizə ötən axşam gəldiyimiz andan etibarən hər bir məqamda mən çox yaxşı mənada təəccüblənirəm. Mənim qardaşım Nəvaz Şərif o vaxt mənə demişdi Bakıya gedəndə sən bunu görəcəksən ki, nə qədər gözəl şəhərdir. Ötən gün biz Bakıya axşam saatlarında gəldik. Bu gün səhər mən Sizin böyük atanız Heydər Əliyevə hörmətimi ifadə etmək üçün Fəxri xiyabanda oldum. Hesab edirəm ki, Siz onun layiqli oğlusunuz. Fəxri xiyabanı ziyarət etmək mənim üçün böyük şərəf idi.

Əminəm, dahi atanızın ruhu şaddır ki, Sizin rəhbərliyinizlə gözəl ölkəniz və xalqınız inkişaf edir.

(Ardı 3-cü səhifədə)

# Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərifin Azərbaycana rəsmi səfəri



(Əvvəli 2-ci səhifədə)

Eyni zamanda, biz Şəhidlər xiyabanında da olduq. Orada bu ölkə uğrunda həyatını qurban verənlərin də ruhuna ehtiramımı bildirdim. Əziz Qardaşım, buraya gələndə yolboyu gördüklərim məndə çox dərin təəssürat yaradıb. Sizin gərgin əməyiniz və rəhbərliyiniz sayəsində ölkənizdə böyük işlər görülüb. Mən İslamabada qayıtmamışdan öncə Sizdən bir neçə xahiş edəcəyəm. Bizim şəhər planlaşdırılması və yaşıllaşdırma sahəsində sizin təcrübənizə ehtiyacımız var. Şəhəriniz son dərəcə təmizdir, tullantıların emalı məsələsi, yəni, bu sahələrdə bizim sizin təcrübənizə ehtiyacımız var. Həqiqətən də, mən çox şadam və məmnunam ki, ölkəniz bu cür inkişaf edib.

Cənab Prezident, biz bu gün çox səmərəli danışıqlar apardıq. Əlbəttə, kamera qarşısında demək istəyirəm ki, bizim ikitərəfli danışıqlarımızda da bütün məsələlər üzrə qarşılıqlı anlaşma hökm sürür, istər ikitərəfli, istər çoxtərəfli məsələlərdə mövqelərimiz üst-üstə düşür.

Pakistan və Azərbaycan iki qardaş xalqdır. Bizim münasibətlərimiz qarşılıqlı dəstək, səmimiyyət və ehtiram üzərində qurulub. Təyyarə Bakı hava limanına enərkən mən gördüm ki, orada Pakistan bayrağı dalğalanırdı, hətta hava limanından kənarda da. Nümayəndə heyətinin üzvü mənə dedi ki, cənab Baş nazir, baxın, kənarda belə Pakistan bayrağı dalğalanır. Bu, Azərbaycanda Pakistana olan münasibətdir və eyni dərəcədə Pakistan xalqı da Azərbaycan xalqını sevir, qardaş və bacı olaraq. Siz də uzaqgörən lider olaraq bu işə öz töhfənizi vermisiniz. Tam səmimi olaraq deyə bilərəm ki, əsrlər boyu davam edən bu münasibətlər çox güclüdür. Amma təəssüflər olsun ki, bu gün bizim ticarətimiz və sərmayə yatırımlarımız həmin o münasibətlər səviyyəsində deyil. Qarşılıqlı əməkdaşlıq sahəsində daha çox işlər görə bilərik və bilirəm ki, cənab Prezident, Siz bunu artırmaq niyyətindəsiniz, biz də onun əzmindəyik. Cənab Prezidentlə bu gün görüşdə biz xüsusi sahələrdə bu münasibətləri daha da inkişaf etdirmək məsələsini müzakirə etdik.

Azərbaycan zəngin təbii sərvətlərə, o cümlədən böyük neft-qaz sərvətlərinə malikdir. Bizim, əlbəttə, bu sahədə sıxıntımız var. Biz çox bahalı idxala bağlı olan ölkəyik. Bu, bizim üçün çox baha başa gəlir. Ötən il biz bu sahəyə 27 milyard ABŞ dolları xərcləmişik. Yəni, əziz Qardaşım, biz bunun öhdəsindən gələ bilmirik, çünki müxtəlif çağırışlarla üz-üzəyik. İnflyasiya, idxal olunan neftin qiymətinin qalxması və Ukrayna münaqişəsi səbəbindən bizim ölkəmiz böyük təzyiqlə üz-üzədir. Təsəvvür edin, ona görə biz enerjiyə 27 milyard ABŞ dolları xərcləmişik. Maşallah, Azərbaycanın bu sərvəti var və biz Azərbaycanla, eyni zamanda, neft-kimya məhsulları sahəsində əməkdaşlığı etmək istəyirik. Biz Səudiyyə Ərəbistanının "Aramco" şirkəti ilə danışıqlar aparırıq və çox şad olarıq ki, Azərbaycan da bu məsələyə qoşulsun və bizim həmin bu sahəyə xərclədiyimiz pulun bir hissəsini sərmayə olaraq öz üzərinə götürsün. Bizim Günəş enerjisi sahəsində potensialımız var. Biz arzularımızı gərgin əmək sayəsində həyata keçirə bilsək, əziz Qardaşım, Sizi inandırıram ki, biz çox bahalı olan bu xərci, yəni, nefti idxal etmək məsələsini Günəş enerjisi vasitəsilə mübadilə edə bilərik. Biz hətta bu enerjini ixrac edə bilərik, bu, mümkündür. Çünki bizim bu sahədə potensialımız 10 min meqavata bərabərdir. Sizi də dəvət edirəm. Siz də bu məsələyə çox müsbət rəy verdiniz ki, bu sahədə də Azərbaycan iştirak edə bilər, sərmayə qoya bilər. Biz də hər cür dəstək göstərməyə hazırıq ki, Azərbaycan bu sahəyə daxil olsun.

Əlbəttə ki, Pakistan Azərbaycana düyü ixrac edən ölkədir. Mənim nümayəndəm buradadır, o da bu işdə çox intensiv çalışır ki, biz düyü ixracını artıra bilək. Sizə və Hökumətinizə təşəkkür edirəm, hər cür rüsumları aradan qaldırdınız ki, Pakistan düyüsü Azərbaycan bazarına maneəsiz ixrac edilsin. İnşallah, Pakistanın Basmati düyü brendi də Azərbaycanda supermarket şəbəkələrində təqdim olunacaq.

Nəqliyyat sahəsi, biz bu məsələni yenidən müzakirə edəcəyik. Eyni zamanda, biz turizm sahəsini də inkişaf etdirmək istəyirik. Mən çox məmnuniyyətlə qeyd edə bilərəm ki, "Azərbaycan Hava Yolları" - AZAL tezliklə Bakıdan İslamabada uçuşlara başlayacaq. Əlbəttə, "Pakistan Beynəlxalq Hava Yolları" da əməkdaşlıq edəcəkdir. Mənim bildiyimə görə, Karaçi və Lahora da reyslər açıla bilər. Mən Azərbaycanın nəqliyyat nazirini də Pakistana səfərə dəvət edirəm ki, bu məsələləri müzakirə edək və bu sahədə turizmi inkişaf etdirək.

Bununla yanaşı, digər sahələr də var ki, biz orada daha sıx əməkdaşlıq edə bilərik. Sizi əmin edirəm ki, biz Sizinlə sıx şəkildə işləməyə hazırıq və bütün məqsədlərimizə nail ola bilərik.

Təşəkkür edirəm Sizə, cənab Prezident, Siz Kəşmir məsələsində hər zaman bizim bacı-qardaşlarımızın yanında olmusunuz. Son 70 ildən artıq bir dövrdə biz Hindistanın terror aktlarına, misilsiz zorakılığına məruz qalmışıq. Orada hər cür pozuntular baş veribdir. BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri hətta o dərəcədə kobud şəkildə pozulmuşdu ki, vaxtilə - ötən əsrin 50-ci illərində cənab Nehru öz parlamentində söz vermişdi ki, Hindistan öz vədlərinə əməl edəcəkdir. Amma təkcə o vəd deyil, ondan sonra bir sıra öhdəliklər tarixin zibilliyinə göndərilmişdir. Onların törətdiyi vəhşilik minlərlə kəşmirli bacı-qardaşımızın həyatına son qoymuşdur, onlar şəhid olmuşdur. Hətta iki-üç yaşlı uşaqlar belə qətlə yetirilmişdir. Hər gün həmin ərazidə mülki insanların cəsədlərini görmək mümkündür.





Cənab Prezident, Sizə mənəvi dəstəyə görə təşəkkür edirəm. Bu, bizim üçün çox dəyərlidir və bizi, kəşmirli bacı-qardaşlarımızı ruhlandırır ki, onlar özlərinin müqəddəratlarının təyin edilməsi məsələsində də bir gün nail olacaqlar, İnşallah.

Pakistan hər zaman Azərbaycanın ərazi bütövlüyünü dəstəkləmişdir. Biz Qarabağ üzərində Azərbaycanın hüququnu hər zaman birmənalı dəstəkləmişik. Sizin ordunuz çox cəsarətlə döyüşərək Qarabağı azad etmişdir, ölkənizin ərazi bütövlüyünü bərpa etmişdir. Pakistan Azərbaycanı hər zaman dəstəkləmişdir. Bu, bizim qardaş olaraq vəzifəmiz, borcumuz idi və biz bunu həyata keçirdik.

Məmnunam ki, Ermənistanla sülh sazişi üzərində artıq danışıqlar gedir. Bildiyiniz kimi, Pakistan Ermənistanla diplomatik münasibətlər qurmayan bir neçə ölkədən biridir və bu, bizim mənəvi öhdəliyimizdir. Siz yalnız Ermənistanla sülh sazişini imzalayandan sonra bizə bir mesaj versəniz, bu məsələyə yenidən baxa bilərik. Bu məsələdə də biz birmənalı olaraq Azərbaycanı dəstəkləyirik.

Əziz Qardaşım, bizim çox böyük imkanlarımız var. Bu əməkdaşlıq nəticəsində idxalixracımız da çox kəskin şəkildə artacaqdır. Azərbaycan Pakistanla münasibətlərdə təbii olaraq çox mühüm rol oynaya bilər, əlbəttə ki, bizim qonşuluğumuzda Əfqanıstan və İran var. Hesab edirəm ki, Çin daha bir mühüm oyunçudur. Yəni, Pakistan bu baxımdan Azərbaycan və Türkiyə ilə birlikdə qardaş ölkə olaraq hərəkət edə bilər. Pakistan, Azərbaycan, Səudiyyə Ərəbistanı yenə də qardaş ölkələrdir. Pakistan, Azərbaycan və Birləşmiş Ərəb Əmirlikləri qardaş ölkələrdir. Pakistan, Azərbaycan, Qətər qardaş ölkələrdir. Yəni, baxın nə qədər böyük işlər görmək olar. Biz Pakistan olaraq səylərimizi bir balaca artırmalıyıq. Biz daha fəal, daha çox enerji ilə işləməliyik. Sizi əmin edirəm ki, biz bu məsələdə bir yerdə irəliləyəcəyik.

Biz müdafiə sənayesi sahəsində də tərəqqiyə nail ola bilərik. Heç şübhəm yoxdur ki, bizim əməkdaşlığımız bu sahədə də inkişaf edəcəkdir. Burada heç bir sirr yoxdur, biz heç nəyi gizlətmirik. Çünki nəticə etibarilə bu, regionda sülhün təmin edilməsinə xidmət edir, bu, təcavüz üçün istifadə edilmir. Biz öz hüquqlarımızı qoruyuruq. Biz bu regionda sülhü təşviq edirik ki, xalqlarımızın mənafelərini qoruya bilək. Biz bu sahədə də əməkdaşlığı səbirsizliklə gözləyirik. Sizin nümayəndə heyətinizi İslamabadda məmnuniyyətlə qəbul edəcəyəm ki, bu sahədə daha intensiv əlaqələr yaradılsın. İqtisadiyyat, kommersiya, ticarət, aviasiya sahələrində də nümayəndə heyətinizi gözləyirik. Biz, eyni zamanda, enerji sahəsində də Sizin nümayəndə heyətinizi gözləyirik ki, bu sahəyə, neft, neft-kimya və Günəş enerjisi sahələrinə sərmayə cəlb edə bilək. Sizi əmin etmək istərdim ki, bu, ən şəffaf münasibətlər olacaq, proses sürətlə gedəcək, biz vaxt itirməyəcəyik və bütün bürokratik maneələri aradan qaldıracağıq. Biz bu məsələlərdə də sübut edəcəyik ki, budur iki qardaş ölkə, biz xalqlarımızın mənafeyi naminə birlikdə daha böyük nailiyyətlər əldə edə bilərik.

Qonaqpərvərliyə görə bir daha təşəkkür edirəm, cənab Prezident, gözəl ölkənizdə olmağa şadam. Bu imkanı bizə yaratdığınız üçün Sizə bir daha təşəkkür edirəm. Mən şəxsən Sizin bütün nailiyyətlərinizin şahidi oldum, Sizin rəhbərliyinizlə bu ölkədə nə işlər gördüm, onu da öz gözlərimlə gördüm. Mən bu fürsətdən istifadə edərək, cənab Prezident, Sizi Pakistana səfərə dəvət edirəm. Mən artıq Xarici İşlər Nazirliyinə göstəriş vermişəm ki, tarixlərlə bağlı danışıqlar aparılsın və böyük məmnuniyyətlə Sizi İslamabadda görməyə şad olacağam, İnşallah. Diqqətinizə görə təşəkkür edirəm.

* * *

İyunun 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərifin şərəfinə rəsmi lanç verilib.

* * *

Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərifin Azərbaycan Respublikasına rəsmi səfəri iyunun 15-də başa çatıb.

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Baş nazir Məhəmməd Şahbaz Şərifi hava limanında Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Elnur Məmmədov və digər rəsmi şəxslər yola salıblar.

**AZƏRTAC-ın materialları əsasında**

# Müdafiə Nazirliyinin Kollegiya iclası keçirilib

İyunun 16-da müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə 2023-cü ilin birinci yarım ilinin yekunlarına dair Müdafiə Nazirliyinin Kollegiya iclası keçirilib. İclasda nazir müavinləri, baş idarə, idarə və xidmət rəisləri, həmçinin hərbi birlik və birləşmə komandirləri iştirak ediblər.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və Azərbaycan Respublikasının müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Müdafiə naziri giriş nitqi ilə çıxış edərək Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin "Azərbaycan Ordusunun Türkiyə Silahlı Qüvvələrinin modeli əsasında inkişaf etməsi ordu quruculuğu istiqamətində aparılan islahatların müsbət nəticəsinin göstəricisidir" fikirlərini xüsusilə vurğulayıb. Bildirilib ki, bu sahədə cari ilin birinci yarısında görülən işlər nəticəsində artıq müəyyən nailiyyətlər qazanılıb.

İclasda 2023-cü ilin birinci yarısında bütün qoşun (qüvvə) növlərinin xidməti-döyüş fəaliyyəti təhlil edilib, Azərbaycan Ordusunun imkan və qabiliyyətlərinin artırılması, əməliyyat və döyüş hazırlığı, mühəndis tədbirləri, kəşfiyyat fəaliyyəti, peşəkar kadrlarla komplektləşdirilməsi, şəxsi heyətin mənəvi-psixoloji hazırlığı, hərbi təhsilin inkişafı, habelə hərbi hissələrdə aparılan tikinti-quruculuq işləri, şəxsi heyətin sosial-məişət şəraitinin yaxşılaşdırılması və digər sahələrdə görülən tədbirlər barədə geniş məruzələr dinlənilib.

Sonra Azərbaycan-Ermənistan şərti sərhədi və Qarabağ iqtisadi rayonunda mövcud əməliyyat şəraiti təhlil edilib. General-polkovnik Zakir Həsənov Ermənistan silahlı qüvvələri və qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən mövqelərimizin intensiv atəşə tutulmasının, habelə Qarabağ iqtisadi rayonu ərazisində qeyri-qanuni hərbi daşımaların və uzunmüddətli fortifikasiya qurğularının quraşdırılması cəhdlərinin qarşısının alınması məqsədilə bölmələrimiz tərəfindən bundan sonra da zəruri cavab tədbirlərinin görülməsi, qarşı tərəfin fəaliyyətinin daim müşahidə edilməsi və istənilən təxribatının qarşısının qətiyyətlə alınmasına hər an hazır olması barədə göstərişlər verib.

Yekun nitqi ilə çıxış edən müdafiə naziri Ali Baş Komandan tərəfindən 2023-cü ilin növbəti yarımili üçün Azərbaycan Ordusu qarşısında qoyulan tapşırıqları kollegiya iştirakçılarına çatdırıb, şəxsi heyətin sağlamlığı və təhlükəsizliyinin qorunması, peşəkarlıq və döyüş hazırlığının daha da artırılması, habelə qoşunların döyüş qabiliyyətinin yüksək səviyyədə saxlanılmasına xüsusi diqqət yetirilməsini tapşırıb.

Kollegiya iclasının sonunda müdafiə nazirinin təltif əmrləri elan edilib.

# Azərbaycan Ordusunda Milli Qurtuluş Günü münasibətilə silsilə tədbirlər keçirilib

*Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi tədbirlər planına əsasən, Müdafiə Nazirliyinin tabeliyində olan birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrində 15 İyun - Milli Qurtuluş Günü münasibətilə silsilə tədbirlər keçirilib.*



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, plana uyğun olaraq, şəxsi heyət Heydər Əliyev mərkəzlərini, muzeyləri və abidələri ziyarət edib, Ulu Öndərin şərəfli həyat yolu və fəaliyyəti haqqında filmlər nümayiş etdirilib, konfranslar, "dəyirmi masa"lar, eləcə də müxtəlif mədəni-kütləvi tədbirlər təşkil olunub.



Keçirilən silsilə tədbirlərdə əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və ölkəmizin suverenliyi, ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Çıxış edənlər Ulu Öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra ölkəmizdə həyata keçirilən quruculuq işlərindən və onun siyasi kursunun bu gün Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsindən, eləcə də Vətən müharibəsində qazanılan şanlı qələbənin tarixi əhəmiyyətindən danışıblar.

Tədbirin bədii hissəsində Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin, Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin kollektivlərinin, həmçinin incəsənət xadimlərinin iştirakı ilə rəngarəng konsert proqramları təqdim edilib.

Sonda döyüş hazırlığında fərqlənən bir qrup hərbi qulluqçuya fəxri fərmanlar təqdim olunub.

* * *

Azərbaycan Hərb Tarixi Muzeyinin və Müdafiə Nazirliyinin Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin birgə təşkilatçılığı ilə 15 İyun - Milli Qurtuluş Gününə həsr edilmiş "Qurtuluşdan Zəfərə" adlı tədbir keçirildi. Tədbirdə Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin, Hərbi Polis İdarəsinin, Milli Qeyri-Hökumət Təşkilatları Forumunun, Müdafiə Nazirliyinin xidmətləri və müəssisələrinin, hərbi hissələrin və qeyri-hökumət təşkilatlarının nümayəndələri iştirak etdilər.

Əvvəlcə tədbir iştirakçılarına Azərbaycanın ictimai-siyasi həyatında müstəsna xidmətləri olan, Milli Qurtuluş Gününün banisi Ulu Öndər Heydər Əliyevin həyatı və siyasi fəaliyyətini əks etdirən sənədli film təqdim olundu. Azərbaycan Hərb Tarixi Muzeyinin rəisi istefada olan polkovnik Əzizağa Qənizadə çıxış edərək bildirdi ki, müasir Azərbaycan tarixinin son 40 ili Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin adı ilə sıx bağlıdır. Ömrünü Azərbaycan xalqının xoş gələcəyinə həsr etmiş Ulu Öndər Heydər Əliyev həm keçmiş Sovetlər Birliyində, həm də müstəqillik illərində ölkəmizin tərəqqisi üçün böyük işlər görmüşdür. Həyatımızın elə bir sahəsi yoxdur ki, bu böyük dövlət adamının bilavasitə diqqəti və fəaliyyəti nəticəsində dəyişib inkişaf etməsin.

Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədr müavini İxtiyar İsayev qeyd etdi ki, 1993-cü ilin iyununun ilk günlərində Azərbaycan Respublikasının rəhbərliyində hökm sürən xaos, anarxiya ölkəni parçalanma, vətəndaş müharibəsi həddinə gətirib çıxarmışdı. Tarixin belə bir ağır dönəmində dövlətçiliyimizi üzləşdiyi bu bəladan qurtarmaq üçün qətiyyətli bir liderə ehtiyac yaranmışdı. Azərbaycan xalqı xilaskarı kimi o zaman Naxçıvan Ali Məclisinin sədri olan Ümummilli Lider Heydər Əliyevi gördü. Xalqın qətiyyətli təkidi ilə Ulu Öndər Heydər Əliyev Bakıya dəvət edildi və 15 iyun 1993-cü ildə Ali Sovetin sədri seçildi. O vaxtlar Ermənistanla müharibə şəraitində olan ölkəmizin ərazisinin bir hissəsi düşmən işğalına məruz qalmışdı. Qarabağdan və Ermənistanla həmsərhəd rayonlardan əhali qaçqın düşmüşdü. Ali Sovetin sədri seçilən Ulu Öndər Heydər Əliyev xalqın və ölkənin bu ağır dönəmində dövlət başçısının səlahiyyətlərini də icra etməyə başladı. Həm ölkə daxilində, həm də xaricində fəaliyyət göstərən təxribatçı qüvvələri zərərsizləşdirmək üçün dahi şəxsiyyət qətiyyətli addımlar atdı. Qısa zamanda ölkə daxilində siyasi sabitliyə nail oldu. Orduda və müxtəlif dövlət qurumlarında əsaslı islahatlar apardı. İllər keçdikcə Azərbaycan daha da möhkəmlənirdi. Dünya ölkələri sırasında nüfuzu daha da artırdı. Həmin illərdə Azərbaycan Respublikasının Konstitusiyası hazırlanıb qəbul edildi.



Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev dünyanın ən nəhəng şirkətləri ilə "Əsrin müqaviləsi"ni imzaladı. Azərbaycan neftini dünya bazarına çıxarmaqla ölkənin iqtisadi gəlirlərini artırdı. Ermənistan ordusunun işğalı altında olan torpaqlarımızın sülh və danışıqlar yolu ilə azad edilməsi istiqamətində fasiləsiz iş apardı.

İxtiyar İsayev daha sonra bildirdi ki, Azərbaycan Prezidenti İlham Əliyev Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirir. Otuz ilə yaxın erməni işğalında qalmış torpaqlarımızı azad etməklə ata vəsiyyətinə əməl edərək ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsinə nail oldu. Azərbaycanın həm daxili siyasətində, həm də xarici siyasətində qazanılan uğurların başlanğıcı məhz 15 İyun - Milli Qurtuluş Günüdür.



Sonra tədbirdə çıxış edənlər - Sevda Əliyeva, İlham Qurban oğlu, Rauf Zeyni və başqaları Milli Qurtuluş Günü ilə bağlı Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə ölkəmizin çiçəklənməsi naminə gördüyü işlərdən ürəkdolusu danışdılar. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə başlayan əks-hücum əməliyyatı zamanı düşməni məğlub edərək kapitulyasiya aktını imzalamağa məcbur etdiyindən, həmçinin ordumuzun tarixi Zəfərindən geniş söz açıldı.

Tədbir Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrın nəzdində fəaliyyət göstərən musiqi qrupunun solistlərinin vətənpərvərlik və qəhrəmanlıq mahnılarının ifası ilə başa çatdı.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

# "15 İyun - Milli Qurtuluş Günü" sadəcə təqvim bayramı deyil...

*Ulu Öndər Heydər Əliyevin xilaskarlıq missiyası ilə Azərbaycana hakimiyyətə qayıdışının 30-cu ildönümü münasibətilə Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzinin "Heydər Əliyev muzey-lektoriyası"nda tədbir keçirilib.*



Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat Xidmətindən məlumat verilib.

Bildirilib ki, əvvəlcə muzey-lektoriyanın ekspozisiyasında nümayiş olunan foto və sənədlər barədə tədbir iştirakçılarına ətraflı məlumat verilib. Burada sərgilənən hər bir foto



və sənəd görkəmli siyasi və dövlət xadimi, müasir Azərbaycan Ordusunun qurucusu Ulu Öndər Heydər Əliyevin zəngin ömür yolunun müxtəlif anlarını əks etdirir.

Dəyirmi masada çıxış edən polkovnik Abdulla Qurbani qeyd edib ki, üçüncü ildir xalqımız və ordumuzun şəxsi heyətinin qələbə əhvali-ruhiyyəsi ilə qeyd etdiyi 15 İyun - Milli Qurtuluş Günü Azərbaycanın iqtisadi, siyasi, mədəni yüksəlişinə qədəm qoyduğu, ölkəmizin ordu quruculuğunda yeni mərhələnin başlandığı gündür. Müstəqilliyini yenicə bərpa etmiş respublikamızda xalqın vətəndaş müharibəsi təhlükəsindən, dövlətimizin çevriliş cəhdlərindən xilas edildiyi gündür. 15 İyun - Milli Qurtuluş Günü xalqımız üçün sadəcə təqvim bayramı deyil, eyni zamanda, böyük ictimai-siyasi və tarixi əhəmiyyətə malik bayramdır. Bu əlamətdar gün Azərbaycan Ordusunun birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrində də coşqu ilə qeyd edilir.

İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi rəisinin vəzifəsini icra edən polkovnik Elşad Əbilov da bu şanlı tarixin memarının Azərbaycanın müstəqilliyinin qorunub saxlanılmasında, möhkəmləndirilməsində, inkişafında müstəsna rol oynayan, daim xalqına arxalanan və xalqımıza Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev kimi görkəmli şəxsiyyəti bəxş edən Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin olduğundan qürurla söhbət açıb: "1991-ci ilin oktyabrında Azərbaycan öz dövlət müstəqilliyini bərpa etsə də, ölkədə yaranan gərgin vəziyyət dövlətimizin müstəqilliyini təhlükə altında qoyurdu. Ölkədə fəaliyyət göstərən bəzi silahlı birləşmələrin yol verdikləri başıpozuq hərəkətlər ölkəmizin daxilində qardaş qırğını və vətəndaş müharibəsinə zəmin yaradırdı. Ayrı-ayrı bölgələrdə separatçılıq və parçalanma meyillərinin baş qaldırması Azərbaycanın bir dövlət kimi varlığına birdəfəlik son qoyulması planını tam gücü ilə işə salmışdı. Həmin dövrdə əhalinin böyük təbəqəsini əhatə edən vətənpərvər insanlar yaranmış ağır, mürəkkəb vəziyyətdən çıxış yolunu Naxçıvan Ali Məclisinin sədri, görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycana rəhbərlik etməsində görür və bu məqsədlə müxtəlif təşəbbüslərlə çıxış edirdilər. 1993-cü il iyunun 4-də, Azərbaycan vətəndaş müharibəsi təhlükəsi ilə üz-üzə qalanda AXC-Müsavat cütlüyü həm xalqın tələbini, həm də özlərinin acınacaqlı aqibətlərini nəzərə alaraq, Heydər Əliyevi Bakıya dəvət etmək məcburiyyətində qaldılar".

Həmin günlərdə Ulu Öndərə müraciət edən məşhur "91-lər"in ən gənc nümayəndəsi olan professor Vüqar Rəhimzadə isə bildirib ki, Azərbaycan Parlamentinin 1993-cü il iyunun 15-də keçirilmiş iclasında Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi və bu hadisə xalqımızın tarixinə "Milli Qurtuluş Günü" kimi daxil oldu. Milli Qurtuluş Günündən daha parlaq gələcəyə, möhtəşəm Zəfərə doğru gedən yolumuzun başlanğıcı da məhz həmin günlərdə qoyulurdu.



Respublika Veteranlar Təşkilatı sədrinin müavini istefada olan polkovnik Cəlil Xəlilov da Heydər Əliyev və Azərbaycanda təhlükəsizlik məsələləri, Ulu Öndərin ordu quruculuğunda, Sərhəd Qoşunlarının formalaşmasında, möhkəmlənməsində müstəsna xidmətlərindən, eləcə də veteranlara, müharibə iştirakçılarına göstərilən diqqət və qayğıdan danışıb. Bu ənənələrin Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən bu gün də uğurla davam etdirildiyini vurğulayıb.

Dəyirmi masada zabitlərdən Qabil Talıbov, Mehman Kərimov, Emil İbrahimov, Elvin Əzizov, Rafət Əliyev, "Ehtiyat zabit hazırlığı kursu"nun dinləyicilərindən İlqar Balakişiyev, Məhəmməd Emin Şahbazov və başqaları çıxış edərək Ulu Öndərin Azərbaycan xalqı və dövləti qarşısında xidmətləri barədə fikirlərini söyləyib. Bundan sonra da Heydər Əliyev ideyalarına sadiq qalaraq Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətənə, xalqa, dövlətə sədaqətlə xidmət edəcəklərini bir daha bəyan ediblər.

Sonda Azərbaycan Ordusunun Sənədli və Tədris Filmləri Mərkəzinin hazırladığı "Milli Qurtuluşdan Zəfərə doğru" adlı videoçarx nümayiş etdirilib.

## Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində hərbi qulluqçularla görüş keçirilib

*Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində "Zabit ixtisası" və "Ehtiyat zabit hazırlığı" kurslarında "Tərbiyəvi işin təşkili" və "Psixoloq" ixtisasları üzrə təhsil alan zabit və kursantlarla görüş keçirilib.*



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Şəxsi Heyət Baş İdarəsinin İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin rəisi vəzifəsini icra edən polkovnik Elşad Əbilov şəxsi heyətə 2023-cü ilin ölkəmizdə "Heydər Əliyev İli" elan edilməsi ilə əlaqədar Azərbaycan Ordusunda keçirilən silsilə tədbirlərin əhəmiyyətindən, eləcə də Ulu Öndərin Azərbaycan xalqının tarixində əvəzsiz xidmətlərindən danışıb.

Görüşdə, həmçinin dinləyicilərə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin müasir Azərbaycan Ordusunun yaradılmasında və inkişafında misilsiz xidmətləri və Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin apardığı uğurlu daxili və xarici siyasət nəticəsində Azərbaycan Ordusunda həyata keçirilən islahatlar barədə məlumat verilib.

Qarşıya qoyulmuş vəzifələrin icrası məqsədilə şəxsi heyətin azərbaycançılıq, dövlətçilik və vətənpərvərlik ruhunda tərbiyə olunması, yüksək mənəvi-psixoloji hazırlığın təmin edilməsi və hərbi intizamın möhkəmləndirilməsi istiqamətində müvafiq tapşırıqlar verilib.

Sonda şəxsi heyəti maraqlandıran suallar cavablandırılıb, xatirə şəkli çəkdirilib.

## Müdafiə Nazirliyinin məlumatı

İyunun 15-i saat 11:00 radələrindən başlayaraq Ermənistan silahlı qüvvələrinin bölmələri Gorus rayonunun Dığ yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun üzbəüz istiqamətdə yerləşən mövqelərini, minaatanlar da daxil olmaqla, müxtəlif çaplı silahlardan atəşə tutub.

Bölmələrimiz tərəfindən qeyd olunan istiqamətdə cavab tədbirləri görülür.

* * *

İyunun 16-sı saat 00:15-dən saat 00:20-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Göysu yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən ordumuzun Gədəbəy rayonunun Qalakənd yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini bir neçə dəfə atıcı silahlardan atəşə tutub.

Bundan başqa, saat 00:50-dən saat 04:10-dək Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri tərəfindən Azərbaycan Ordusunun Şuşa rayonu istiqamətində yerləşən mövqeləri də fasilələrlə atəşə tutulub.

Bölmələrimiz tərəfindən qeyd olunan istiqamətlərdə adekvat cavab tədbirləri görülüb.

* * *

İyunun 16-sı saat 09:15-də Ermənistan silahlı qüvvələrinin bölmələri Vedi rayonunun Arazdəyən yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən ordumuzun Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunun Heydərabad yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini müxtəlif çaplı atıcı silahlardan atəşə tutub.

Azərbaycan Ordusunun bölmələri tərəfindən cavab tədbirləri görülür.

# "Hərbi tibb personalımız da müharibənin ağır sınaqlarından üzüağ çıxdı"

***Müsahibimiz Müdafiə Nazirliyinin Tibb İdarəsinin rəisi tibb xidməti general-mayoru Firuddin İsaxan oğlu Nəbiyevdir.***



**- Cənab general-mayor, bildiyimiz kimi, hər il iyunun 17-si ölkəmizdə tibb işçilərinin peşə bayramı günü kimi qeyd olunur. Müsahibəmizə bu günün tarixi, ölkəmizdə səhiyyənin inkişafı və bu sahədə aparılan islahatlar haqqında fikirlərinizlə başlamaq istərdim.**

- İnsan üçün ən böyük sərvət sağlamlıqdır. İnsan sağlamlığının keşiyində isə tibb işçiləri dururlar. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin dövlət rəhbərliyinə qayıdışından dərhal sonra onun həyata keçirməyə başladığı uğurlu islahatlar tibb sahəsindən də yan keçmədi. Səhiyyənin səmərəsinin yüksəldilməsi və intensivləşdirilməsi üçün maddi-texniki baza yaradıldı, beynəlxalq əlaqələr genişləndirildi. Görülən işlərin, aparılan islahatların nəticəsində bu gün Azərbaycan səhiyyəsi özünün yeni inkişaf mərhələsini yaşayır. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin diqqət və qayğısı ilə nəinki paytaxt Bakıda, bölgələrdə də müasir tibb mərkəzləri açılır, köhnə tibb ocaqları yenidən bərpa olunaraq müasir avadanlıqlarla təmin olunur. Səhiyyə sisteminin inkişafı, bu sahənin maddi-texniki bazasının, kadr potensialının gücləndirilməsi və infrastrukturun yeniləşdirilməsi daim diqqət mərkəzindədir. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 4 iyun 2001-ci il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının sosial inkişafı sahəsində tibb işçilərinin böyük xidmətlərini və Azərbaycan Xalq Cümhuriyyətinin ilk Səhiyyə Nazirliyinin 1918-ci il iyunun 17-də yaradılması nəzərə alınaraq hər il iyunun 17-si Azərbaycan Respublikası tibb işçilərinin peşə bayramı günü kimi qeyd olunur. Hər sahədə olduğu kimi, Azərbaycan Ordusunda da səhiyyə sahəsinə xüsusi diqqət göstərilir. Vətən müdafiəçilərinin sağlamlığının keşiyində duran hərbi tibbi personalımızın peşə bayramı hər il təntənəli şəkildə qeyd olunur, xidmətlərində fərqlənənlər mükafatlandırılır.

**- Ordunun səhiyyəsini hərbi təbabət adlandırırlar. Hərbi təbabət anlayışı nə deməkdir və Azərbaycan Ordusunda bu iş necə qurulub?**

- Hərbi təbabətin yaranma tarixi tibbin özünün tarixi ilə eynidir və minilliklər ərzində, ilk müharibələr zamanı formalaşıb. Qədim Hindistan, Misir, Çin, Yunanıstan və Roma ordularında yaralanmış döyüşçülərin yaraları sarınaraq onlara tibbi yardım göstərilmişdir. Bunu arxeoloji qazıntılar və ədəbi mənbələr də sübut edir. Məsələn, Rusiyanın Kerç şəhəri yaxınlığındakı Kül-oba kurqanında tapılmış b.e.ə VII əsrə aid qızıl vazanın üzərində döyüş meydanında tibbi yardım göstərən skiflər təsvir edilmişdir. Türk dövlətlərinə aid arxivlərdə saxlanılan ilk yazılı bəlgələr isə Səlcuqlar dövrünə məxsusdur. Araşdırmalar göstərir ki, bu dövrdə tibbə böyük önəm verilmiş, darüşşəfalar açılmışdır. Hərbi təbabət yönündə isə Səlcuqların hələ neçə əsr öncə hərbi xəstəxanalara sahib olduqları müəyyən edilmişdir. Ölkəmizdə isə hərbi səhiyyə ilk dəfə 1918-ci il noyabrın 15-də Müdafiə Nazirliyinin tibb şöbəsi kimi yaradılıb.



**- 1918-ci il noyabrın 15-də yaradılan tibb şöbəsi, indiki Tibb İdarəsinin müəyyən fəaliyyət sistemi nədən ibarətdir?**

- Qədim tarixi olan hərbi təbabət sülh və döyüş fəaliyyəti dövründə hərbi qulluqçuların sağlamlığının qorunmasına və möhkəmləndirilməsinə, xəstəliklərin, döyüş travmalarının qarşısının alınmasına yönəldilən elmi biliklər və praktiki fəaliyyət sistemidir. Bu gün səhiyyə sahəsi Azərbaycan Ordusunda xüsusi diqqət və qayğı göstərilən əsas təminat növlərindən biridir. Bu təminat Dövlət Başçısı tərəfindən təsdiq olunmuş Əsasnaməyə, müdafiə nazirinin bu sahədəki müvafiq əmr və sərəncamlarına uyğun qurulub.

Azərbaycan Ordusunda tibb xidmətinə metodik rəhbərliyi, tibbi əmlakla təchizatı, kadrların seçilməsi və yerləşdirilməsini, elmi-tədqiqat və müalicə-profilaktika fəaliyyətini koordinasiya və təşkil edən əsas rəhbəredici inzibati orqan Müdafiə Nazirliyinin Tibb İdarəsidir. Müdafiə Nazirliyinin Tibb İdarəsi ona tabe olan tibbi hərbi hissə, müəssisələr və bölmələrin vasitəsi ilə Müdafiə Nazirliyində tibbi təminatı həyata keçirir. İstifadə olunan bu sistem tibb xidməti fəaliyyətinin idarə (koordinasiya) olunmasını və tibbi təminatın təşkili üzrə qərarlar qəbul edilməsini, sülh və müharibə dövründə hərbi qulluqçuların həyatının və sağlamlığının qorunması üçün tədbirlər keçirilməsini təmin edir.

**- Bölgələrdə, xüsusən də, işğaldan azad olunan ərazilərdə dislokasiya olunan şəxsi heyətin tibbi təminatı hansı səviyyədə təşkil edilir?**

- Cənab Prezidentin rəhbərliyi ilə ordu quruculuğunda aparılan uğurlu islahatlar tibb xidmətindən də yan keçmir. Respublikamızda hərbi təbabət inkişaf etdirilir, təkmilləşdirilir. Bütün hərbi hissələr tibbi yardım avtomobilləri ilə, o cümlədən, zirehli ambulanslarla, diaqnostik tibbi cihaz və avadanlıqlarla, dərman preparatları ilə tam təmin olunurlar. Hərbi hissələrdə müasir tələblərə cavab verən onlarla tibb məntəqəsi tikilmiş, Müdafiə Nazirliyinin Baş Klinik Hospitalı, Gəncə Hospitalı, Mərkəzi Stomatoloji Poliklinika, Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Mərkəzi, Mərkəzi Hərbi Həkim Komissiyası, Sanitar-Epidemioloji Nəzarət Mərkəzi əsaslı təmir olunmuş və ən qabaqcıl tibbi avadanlıqlarla təchiz edilən yeni binalara köçürülmüşdür. Hərbi qulluqçular üçün İstirahət Evi də fəaliyyət göstərir. Həmçinin işğaldan azad olmuş ərazilərdə dislokasiya olunan şəxsi heyətin tibbi təminatını təşkil edilməsi məqsədilə yeni və tam təchizatlı hərbi hospitallar, tibb məntəqələri istifadəyə verilib, hazırda yeni hospitalların tikintisi planlaşdırılır. Bir sözlə, yerləşmə yerindən asılı olmayaraq, bütün hərbi hissə və bölmələrimiz təcili tibbi yardım avtomobilləri ilə, diaqnostik tibbi cihaz və avadanlıqlarla, dərman preparatları ilə, fərdi tibbi vasitələrlə tam təmin olunurlar.

**- Danılmaz faktdır ki, şəxsi heyətin sağlamlığı döyüş hazırlığına təsir edən ən mühüm amildir. Bu işdə isə hərbi tibbi personalın üzərinə böyük iş düşür. Ordumuzda peşəkar hərbi həkim kadrların hazırlanması prosesi necə aparılır?**

- Hərbi hissələrin şəxsi heyətinin tibbi təminatının təşkil edilməsi ilə yanaşı, tibb xidmətinin əsas vəzifələrindən biri də yüksək ixtisaslı tibbi kadrların hazırlanmasıdır. Çünki Azərbaycan Ordusunda yüksək ixtisaslı tibbi kadrların hazırlanması ölkəmizin müdafiə qüdrətinin artırılmasına xidmət edən mühüm amillərdən biridir. Hərbi Tibb fakültəsi yaradılanadək Azərbaycan Ordusu üçün həkimlərin hazırlanması əsasən mülki ali təhsil müəssisələrində fəaliyyət göstərən hərbi tibb kafedralarda həyata keçirilirdi.

Orduda yüksək ixtisaslı tibb kadrlarına tələb olduğunu və ölkəmiz üçün mühüm əhəmiyyət kəsb etdiyini görən Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə 25 may 2000-ci ildə Azərbaycan Tibb Universitetinin tabeliyində Hərbi Tibb fakültəsi yaradılması barədə Sərəncam imzalandı. Hal-hazırda Hərbi Tibb Fakültəsi səriştəli və savadlı peşəkar hərbi həkim və feldşerlərin hazırlanması işinin öhdəsindən uğurla gəlir. Bu gün fakültəmizin məzunları olan hərbi həkimlərimiz həm Baş Klinik Hospitalda, həm qarnizon hospitallarında, həm də ucqar tibb məntəqələrimizdə uğurla fəaliyyət göstərirlər.

**- Döyüşlər zamanı səhra şəraitində və ekstremal vəziyyətlərdə tibb işçilərinin fəaliyyəti haqqında sizin fikirlərinizi bilmək istərdik.**

- İkinci Qarabağ müharibəsində bütün qoşun növləri kimi, hərbi tibbi personalımız da ağır sınaqlardan üzüağ çıxdı. Məlumat üçün deyim ki, döyüş fəaliyyətləri zamanı tibbi təminat - şəxsi heyətin sağlamlığının qorunması, möhkəmləndirilməsi, bərpa edilməsi və xəsarət alanların döyüşənlərin sırasına mümkün qədər tez qaytarılması məqsədilə bütün tibbi hissə və bölmələrin yerinə yetirdiyi təşkilati, profilaktik, müalicə-təxliyə, əks-epidemik və digər tədbirlər kompleksidir. Tibb xidmətinin döyüş vaxtı əsas vəzifələri, ümumilikdə, şəxsi heyətin qüvvəsini və ya döyüş gücünü mümkün olan ən yüksək səviyyədə qoruyub saxlamaqdır. Bir sözlə, döyüşün tibbi təminatı döyüş gücünün saxlanılmasına xidmət edir. Bu gün biz qürurla deyirik ki, tibbi personalımız 44 gün ərzində döyüş fəaliyyəti zamanı tibbi təminatın qarşısında duran tapşırıqların öhdəsindən müvəffəqiyyətlə gəldi. Hərbi həkimlərimiz əməliyyatlar zamanı digər qoşun növləri ilə çiyin-çiyinə döyüşə atılaraq qəhrəmanlıq nümunələri göstərdilər. Müharibə zamanı tibb işçilərindən yaralılarımız da, şəhidlərimiz də oldu. 42 tibb işçisi isə xidməti vəzifəsini yerinə yetirərkən qəhrəmancasına şəhid olub. Allahdan yaralılarımıza şəfa, şəhidlərimizə rəhmət diləyirəm.



Xüsusi vurğulamaq yerinə düşər ki, müharibədən sonra Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev çıxışlarının birində "Doğrudan da, həkimlər gecə-gündüz yorulmadan, o ağır şəraitdə, çətin şəraitdə öz həyatını risk altına ataraq yaralılara qulluq edirdilər. Şəhidlərimizin sayının o qədər də çox olmamasının səbəblərindən biri də məhz həkimlərdir", - deyərək tibbi personalımızın uğurlu fəaliyyətini yüksək qiymətləndirmişdir.

**- Hərbi həkimlərimizin növbəti sınağı qardaş ölkə Türkiyədə oldu. Xalqımıza qürurlu anlar yaşadan hərbi tibb personalımızın Kahramanmaraşda Türkiyə Səhiyyə Nazirliyi və Silahlı Qüvvələrinin nümayəndələri ilə qarşılıqlı əlaqədə fəaliyyəti haqqında nə deyə bilərsiz?**

- "Dost dar gündə tanınar" deyiblər. Azərbaycan ilə Türkiyə arasındakı dostluq, qardaşlıq əlaqələrinin böyük tarixi var. Tarixin ən mürəkkəb dövrlərində iki qardaş ölkə bir-birilərinə dəstək olublar. Hər zaman olduğu kimi, Türkiyədə əsrin fəlakəti adlandırılan zəlzələ zamanı da ölkəmiz dəstəyini əsirgəmədi.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin göstərişinə əsasən, Azərbaycan Ordusunun hərbi tibb personalı Türkiyəyə ezam olundu. Hərbi həkimlərimiz Türkiyə Səhiyyə Nazirliyinin və Türkiyə Silahlı Qüvvələrinin nümayəndələri ilə qarşılıqlı əlaqədə qardaş ölkədə baş vermiş zəlzələ nəticəsində xəsarət alanlara tibbi yardım göstərdi.

Ümumilikdə, 81 cərrahi əməliyyat icra edən, 517 nəfərə isə ambulator yardım göstərən 20 nəfərlik hərbi tibb personalımızın fəaliyyəti Türkiyədə yüksək qiymətləndirildi. Həmçinin qardaş ölkəyə ezam olunmuş hərbi tibb personalımızın rəhbəri tibb xidməti polkovniki Niyaməddin Ağamalıyevi Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan "Türkiyə Cümhuriyyəti Dövlət Üstün Fədakarlıq Medalı" ilə təltif etdi. Bu bir hərbçinin timsalında ordumuza, ordunun timsalında dövlətçiliyimizə ehtiramın və Kahramanmaraşda 21 gün müddətində fəaliyyətdə olan tibb personalımızın zəhmətinə verilən yüksək qiymətin təzahürüdür.

(Ardı 7-ci səhifədə)

# Cəmşid Naxçıvanski adına Hərbi Liseyin 51-ci buraxılış mərasimi keçirildi

Milli Müdafiə Universitetinin Cəmşid Naxçıvanski adına Hərbi Liseyinin kursantlarının 2023-cü il üzrə buraxılışına həsr olunan təntənəli mərasim keçirildi.

Buraxılış mərasimi münasibətilə keçirilən tədbirdə Milli Müdafiə Universitetinin rəhbərliyi, liseyin şəxsi heyəti, müəllimlər, məzunlar, valideynlər və KİV-in nümayəndələri iştirak etdilər.

Tədbirdən əvvəl Milli Müdafiə Universitetinin və Cəmşid Naxçıvanski adına Hərbi Liseyin rəhbərliyi tərəfindən hərbi liseydə ucaldılan Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Cəmşid Naxçıvanskinin büstləri ziyarət olundu.



Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anıldıqdan və hərbi orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət Himni ifa edildikdən sonra tədbir açıq elan olundu. Liseyin Döyüş bayrağı təntənəli surətdə sıra meydanına gətirildi.



Milli Müdafiə Universitetinin rektoru professor, general-leytenant Heydər Piriyev çıxış edərək əlamətdar gün münasibətilə məzunları Azərbaycan Respublikasının müdafiə nazirinin adından və öz adından təbrik etdi, onlara gələcək xidmətlərində uğurlar arzuladı.

General-leytenant H.Piriyev qeyd etdi ki, buraxılış mərasiminin təsadüf etdiyi 15 iyun tarixi həm də Azərbaycan xalqının Milli Qurtuluşu, dövlətçiliyin və mənəvi dəyərlərin xilası günüdür. Ulu Öndər Heydər Əliyevin atdığı mühüm addımlardan biri də C.Naxçıvanski adına Hərbi Liseyin yaradılmasıdır. Milli zabit kadrlarının hazırlanmasında xüsusi rolu olan C.Naxçıvanski adına Hərbi Lisey bu gün də Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin layiqli davamçısı, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin diqqət və qayğısı ilə əhatə olunub. Sizin hər birinizə məlumdur ki, Ulu Öndər Heydər Əliyev böyük sınaqlara və təzyiqlərə baxmayaraq bu təhsil ocağının yaradılmasına nail olub. O, bu liseyin əsasını qoyanda əmin idi ki, Azərbaycan xalqı öz azadlığını əldə edəcək və müstəqil Azərbaycan dövləti yaranacaqdır. Yəni, Heydər Əliyev sizin timsalınızda burada təhsil alanları müstəqil Azərbaycan Ordusunda xidmət edəcək zabitlər kimi görürdü. Bu gün Azərbaycan müstəqil, dünyanın sayılıb-seçilən dövlətlərindən biridir. Siz Ulu Öndər Heydər Əliyev tərəfindən yenidən qurulan və Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə inkişafının ən yüksək nöqtəsində olan Azərbaycan Ordusunda xidmət edəcəksiniz. Bu orduda xidmətə hazırlıq üçün indi sizin qarşınızda yeni bir həyat açılır. Siz bu hərbi liseydə aldığınız bilikləri davam etdirməli və Azərbaycan zabiti kimi yetişməlisiniz. Əminəm ki, siz gələcək hərbi təhsilinizi də uğurla davam etdirəcəksiniz", - deyə general-leytenant H.Piriyev bildirdi.

Sonra çıxış edən liseyin müəllimi Rəna Seyidrzayeva məzunlara uğurlar diləyərək onlara Vətənə layiqli zabit olmaları yolunda uğurlar arzuladı. Bildirdi ki, keçirilən liseydaxili qiymətləndirmədən, eləcə də Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən XI siniflərin buraxılış imtahanında yüksək nəticə (274 bal) toplayan kursant Emil Bayramlı olub.

Kursantlar adından çıxış edən kurs birincisi Emil Bayramlı onlara göstərilən etimadı doğruldacaqlarına, növbəti ali hərbi təhsilləri dövründə daha da inamla çalışaraq gələcəkdə orduya dəyərli zabit olacaqlarına, Vətən, dövlət və xalq qarşısında vəzifələrini layiqincə yerinə yetirəcəklərinə, hərbçi şərəfini hər zaman uca tutacaqlarına söz verdi. "Bu gün biz kursantlar üçün əlamətdar və qürurverici bir gündür. Sevinc və eyni zamanda, kədər hissi ilə deyə bilərəm ki, bizə doğma olan, təhsil aldığımız bu liseydə artıq son günümüzdür. Vətən müharibəsindən əvvəl məzunlar öz çıxışlarında qeyd edirdilər ki, gələcəkdə savadlı, bilikli zabit olub işğal olunmuş torpaqlarımızı azad edəcəklər. Onlar verdikləri sözə, icdikləri anda sadiq qalaraq bizlərə Zəfər sevincini yaşatmağı bacardılar. Sevinirəm ki, əsl vətənpərvər, Vətən torpağına olan sevgisini əməlləri ilə sübut etmiş, döyüş meydanında qəhrəmanlıq nümunələri göstərmiş zabitlər tərəfindən hərbin sirlərinə yiyələnmişik. Təhsil aldığımız hər gün hərbi lisey rəhbərliyinin, komandir və müəllimlərimizin diqqət və qayğısını öz üzərimizdə hiss etmişik. Onların tələbkarlığı sayəsində hərbi biliklərə mükəmməl sahib olmuşuq. Kursant yoldaşlarım adından söz verirəm ki, gələcəkdə harada olmağımızdan asılı olmayaraq, Vətən, dövlət, xalq qarşısında üzərimizə düşən vəzifələri layiqincə yerinə yetirəcək, hərbçi şərəfini uca tutacağıq. Vətənimizin müdafiəsində məğrur dayanacaq, şəhid qardaşlarımızdan bizə əmanət olan torpaqlarımızı göz bəbəyimiz kimi qoruyacağıq" , - kursant E.Bayramlı dedi.

Mərasimdə iştirak edən valideynlərdən kursant Elxan Səfərlinin anası Təranə Səfərli sevinc gözyaşları ilə çıxış edərək övladının hərbçi peşəsini seçdiyi üçün qürurlandığını bildirdi. Onun timsalında bütün məzunları təbrik edərək hər zaman Vətənə sədaqətlə xidmət etmələrini tövsiyə etdi.



Çıxışlardan sonra tədrisdə və intizamda fərqlənən liseyin kursantlarına attestat və liseyin döş nişanı təqdim olundu. Kurs birincisi kursant Emil Bayramlı tərəfindən 2023-cü ilin məzunlarının rəmzi simvolu yaş kötüyünə vuruldu.

Daha sonra Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Döyüş bayrağının təhvili və qəbulu mərasimi keçirildi. Döyüş bayrağı növbəti buraxılışın kursantları tərəfindən təhvil alındı.

Sonda kursantlar hərbi orkestrin müşayiətilə lisey marşını ifa etdikdən sonra şəxsi heyətin təntənəli marşla tribunanın önündən keçidi oldu.



**Baş leytenant**
**Oruc MUSTAFAYEV**
**"Azərbaycan Ordusu"**

---

# "Hərbi tibb personalımız da müharibənin ağır sınaqlarından üzüağ çıxdı"

**(Əvvəli 6-cı səhifədə)**

**- Səhiyyə sistemində aparılan hər islahat insanların sağlamlığına etibarlı təminat yaradır. Hərbi tibb sahəsində mütəmadi islahatlar aparılır, xarici ölkələrlə və beynəlxalq təşkilatlarla əməkdaşlıq edilir. Bu addımların hərbi tibb sahəsinə hansı müsbət təsirləri var?**

- Azərbaycan Ordusunun xarici ölkələrlə ikitərəfli və çoxtərəfli hərbi əməkdaşlığı hərbi təbabətin inkişafına da təsirsiz ötüşmür. Onlarla hərbi həkimimiz hər il müxtəlif xarici ölkələrdə elmi simpoziumlarda, beynəlxalq konfranslarda fəal iştirak edir və faydalı təcrübə mübadiləsi aparır. Onu da deyim ki, Azərbaycan Beynəlxalq Hərbi Tibb Komitəsinin üzvüdür. 1921-ci ildə Belçikada yaradılan Beynəlxalq Hərbi Tibb Komitəsi Cenevrə Konvensiyalarının prinsiplərini daha dolğun yerinə yetirmək və hərbi tibb sahəsində elmi məlumat mübadiləsini təmin etmək məqsədilə təsis olunub. Hazırda 112 dövlətin üzv olduğu Beynəlxalq Hərbi Tibb Komitəsinin əsas vəzifəsi hərbi tibb sahəsində texnoloji və elmi təcrübə mübadilələrini təşviq etməkdir. Bundan əlavə, komitə silahlı qüvvələrin tibb xidmətlərinin gənc hərbi həkimləri üçün beynəlxalq sessiyalar və təkmilləşmə kursları, böyük zabitləri üçün silahlı münaqişələrin hüquqi aspektləri üzrə kurslar, iki ildə bir dəfə beynəlxalq konqreslər təşkil edir. Bu komitənin bir üzvü kimi Azərbaycan hərbi tibb xidmətinin beynəlxalq əməkdaşlıq arealı çox genişdir. Bu da hərbi təbabət sahəsində beynəlxalq təcrübənin öyrənilməsinə, bu sahədəki beynəlxalq standartların ordumuzda tətbiq edilməsinə böyük töhfələr verir.

Xarici ölkələrlə hərbi tibb sahəsində əməkdaşlıq çərçivəsində sonuncu dəfə iyunun 14-də rəhbərlik etdiyim nümayəndə heyəti ilə Qazaxıstanda səfərdə olduq. Səfər zamanı keçirilən görüşdə Azərbaycan və Qazaxıstan arasında hərbi tibb sahəsində əməkdaşlığın inkişaf perspektivləri, eləcə də qarşılıqlı maraq doğuran digər məsələlərə dair ətraflı fikir mübadiləsi apardıq.

**- Cənab general, Tibb İşçilərinin Peşə Bayramı Günü münasibətilə Azərbaycan Ordusunda çalışan tibbi personala təbrikiniz və ürək sözləriniz.**

- Səhiyyənin inkişafına daim xüsusi diqqət yetirmiş, tibb işçilərinə böyük qayğı göstərmiş Ulu Öndər "Həkimlik peşəsi öz xalqına, sənətinə yüksək sədaqət tələb edən bir işdir" demişdir. Bu gün Azərbaycan Ordusunda xidmət edən bütün tibb heyəti Vətən müdafiəçilərinin sağlamlığının keşiyində inamla dayanır, tibb xidmətini səviyyədə təşkil edərək vəzifələrinin öhdəsindən layiqincə gəlirlər. Onlar həm yaralanmış və xəstələnmiş hərbi qulluqçulara tibbi yardım göstərir, onları müalicə edir, həm də şəxsi heyət arasında xəstəliklərin yaranması və yayılmasının qarşısını almaq üçün qabaqlayıcı tədbirlər görürlər. Onların hər birini Tibb İşçilərinin Peşə Bayramı günü münasibətilə səmimi-qəlbdən təbrik edir, möhkəm cansağlığı, məsuliyyətli və şərəfli xidmətlərində uğurlar, yeni-yeni nailiyyətlər arzulayıram.

**- Müsahibə üçün çox sağ olun.**

**Müsahibəni apardı:**
**baş leytenant**
**Mahmud MÖHBALIYEV**
**"Azərbaycan Ordusu"**

# “Anatolian Phoenix-2023” təlimində “Yüksək Səviyyəli Müşahidəçi Günü” keçirilib





*Türkiyə Respublikasının Konya şəhərində "Anatolian Phoenix-2023" ("Anadolu Ankası-2023") beynəlxalq axtarış-xilasetmə təlimində "Yüksək Səviyyəli Müşahidəçi Günü" keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, əvvəlcə iştirakçılara təlimin gedişatı, qarşıda duran tapşırıqların məqsədi və yerinə yetirilməsi barədə statistik məlumatlar, eləcə də beynəlxalq təlimə həsr olunmuş qısametrajlı videogörüntü təqdim olunub.

Tədbirin rəsmi hissəsi başa çatdıqdan sonra təlim bazasında "Anatolian Phoenix-2023" ("Anadolu Ankası-2023") beynəlxalq axtarış-xilasetmə təliminə cəlb edilən iştirakçılar tərəfindən müxtəlif epizodların praktiki icrası qonaqlar tərəfindən izlənilib.



Qeyd olunub ki, ölkəmizi beynəlxalq təlimdə təmsil edən Azərbaycan Hərbi Hava Qüvvələri, Hərbi Dəniz Qüvvələri və Xüsusi Təyinatlı Qüvvələrinin şəxsi heyəti yüksək peşəkarlıq nümayiş etdirib.

Sonra "Yüksək Səviyyəli Müşahidəçi Günü"nün planına uyğun olaraq Türkiyə Hərbi Hava Qüvvələrinin "Solo Türk" və "Türk Yıldızları" aviaqrupunun təqdimatında nümunəvi uçuşlar keçirilib.

Sonda xatirə fotosu çəkdirilib.

# “Eternity - 2023” komanda-qərargah təliminin planlama konfransı keçirilib

*Azərbaycan, Türkiyə və Gürcüstan hərbi qulluqçularının və aidiyyəti dövlət qurumlarının nümayəndələrinin iştirak edəcəyi "Eternity-2023" kompüter dəstəkli komanda-qərargah təliminin planlama konfransı keçirilib.*



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Milli Müdafiə Universitetinin Hərbi İdarəetmə İnstitutunun Hərb Oyunları Mərkəzində keçirilən konfransda təlim zamanı strateji əhəmiyyətli, regional iqtisadi layihələrin mühafizəsinin təşkili üzrə icra olunacaq tapşırıqlar müzakirə edilib.

Qeyd edək ki, beynəlxalq təlimin keçirilməsində əsas məqsəd hər üç ölkənin silahlı qüvvələri arasında qarşılıqlı əməkdaşlığın gücləndirilməsi və uzlaşmanın təmin edilməsidir.

# Təlim toplanışında praktiki atış çalışmaları yerinə yetirilib





*Müdafiə nazirinin təsdiq etdiyi 2023-cü ilin hazırlıq planına əsasən, "N" hərbi hissəsində ehtiyatda olan bir qrup hərbi vəzifəlilərin döyüş vərdişlərinin təkmilləşdirilməsi məqsədilə keçirilən təlim toplanışı davam edir.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, plana uyğun olaraq hərbi vəzifəlilər atıcı silahlardan praktiki atış çalışmalarını yerinə yetiriblər.

Atışdan əvvəl şəxsi heyətə silahların taktiki-texniki xüsusiyyətləri və təhlükəsizlik qaydaları çatdırılıb, atəş mövqeyinin tutulması və silahların döyüş vəziyyətinə gətirilməsi üzrə normativlər məşq etdirilib.

Təlim sahəsində şərti düşmən hədəflərinin aşkar olunaraq məhv edilməsi üzrə qarşıya qoyulan tapşırıqlar hərbi vəzifəlilər tərəfindən müvəffəqiyyətlə yerinə yetirilib.

# İdman

## “Azərbaycan” minifutbol klubu Arxangelskdə ikinci olub



Rusiyanın Arxangelsk vilayətində keçirilən minifutbol üzrə ikinci liqanın finalında "Azərbaycan" və "Krasnaya Zvezda" komandaları qarşılaşıblar.

A.F.Liçutin adına Bədən Tərbiyəsi və İdman Kompleksində baş tutan oyun "Krasnaya Zvezda"nın 9:6 hesablı qələbəsi ilə yekunlaşıb. Finaladək 17 oyunda 15 qələbə qazanan və 163 qol vuran "Azərbaycan" komandası birinci liqaya keçib. İkinci liqanın ən yaxşı bombardiri adına Rafiq Qoçəliyev layiq görülüb. O, "Azərbaycan" komandasına 78 qol qazandırmaqla bütün liqalar üzrə rekorda imza atıb.

Cari ildə yaradılmış "Azərbaycan" minifutbol klubu kubok turnirindəki debütünü müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr edib.

## Yunan-Roma güləşi üzrə Azərbaycan yığması Avropa ikincisi olub



Albaniyanın paytaxtı Tiranada keçirilən U-17 Avropa çempionatında yunan-Roma güləşi üzrə yarış başa çatıb.

Qitə birinciliyində altı medal qazanan millimiz 118 xal toplayaraq komanda hesabında ikinci yeri tutub. Yığmamız yalnız Gürcüstandan (185) geri qalıb.

Qeyd edək ki, millimiz Avropa çempionatında 1 qızıl və 5 bürünc medal əldə edib. Turan Daşdəmirov (45 kq) bütün rəqiblərinə qalib gələrək Avropa çempionu olub. Elnar Ziyadov (48 kq), Əli Seyidəlili (51 kq), Ayxan Cavadov (55 kq), Elmin Əliyev (80 kq) və Mahir Qurbanlı (110 kq) isə bürünc medal qazanıblar.

## MMA döyüşçümüz Məhərrəm Həsənzadə növbəti qələbəsini qazanıb



Azərbaycanın MMA döyüşçüsü Məhərrəm Həsənzadə növbəti qələbəsini qazanıb.

Döyüşçümüz Rusiyada təşkil olunan "AMC Fight Nights 120" turniri çərçivəsində yerli idmançı Vladimir Alekseev ilə qarşılaşıb. Məhərrəm Həsənzadə hakimlərin yekdil qərarı ilə qalib elan olunub.

## Güləşçimiz U-17 Avropa çempionatında ikinci olub



Albaniyanın paytaxtı Tiranada güləş üzrə U-17 Avropa çempionatı davam edir.

Güləşçimiz Ruzanna Məmmədova (57 kq) qitə birinciliyinə inamlı start verib. Həmyerlimiz əvvəlcə ispaniyalı Rosa Rodrigesi, daha sonra isə türkiyəli Aslı Köleni məğlub edib. R.Məmmədova yarımfinalda polşalı Suzanna Horbikə qalib gələrək, ikinci dəfə Avropa çempionatının finalına yüksəlib. Güləşçimiz həlledici görüşdə macarıstanlı Sofi Rittərə uduzub və gümüş medalla kifayətlənib.

**AZƏRTAC-ın materialları əsasında**

Leytenant Məhərrəmli Həsən Rövşən oğluna məxsus MN № 0058061 nömrəli zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları baş çavuş Əliyev Tərlan Yaqub oğluna məxsus AD № 0032173 nömrəli, çavuş Sadıqov Emin Ərşad oğluna məxsus AD № 0034946 nömrəli və çavuş Alıyev Elmar Ziyaddın oğluna məxsus AD № 0042706 nömrəlişəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Baş redaktorun müavini** kapitan Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
Vahid MƏHƏRRƏMOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi Nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 307
Nüsxə 4725